# ƏLI (ƏLEYHISSALAM)-IN MÜAVIYƏ ILƏ OLAN MACƏRASI

<"xml encoding="UTF-8?>

ƏLI (ƏLEYHISSALAM)-IN MÜAVIYƏ ILƏ OLAN MACƏRASI

“Nəhcül bəlağə”-nin məktublar bölməsində təqribən on üç uzun məktub gəlibdir ki, bunlar Əli (əleyhissalam) tərəfindən Müaviyəyə göndərilmişdi. Bu məktubların çox hissəsi müharibə, beytül-mal və başqa siyasi əhəmiyyətli məsələlərə aiddir. Elə buna görə də dastan xarakteri daşımadıqlarına görə onların hamısını qeyd etmir, yalnız bir neçə nümunə ilə kifayətlənirik:

1-Ruzigarın mənim kimi İslama xidmət etməmiş və keçmiş kimi keçmişi olmayan bir adama həmtay etməsindən təəccüb edirəm və güman etmirəm ki, bu kəs belə bir iddia (İslamda qabaq olmaq barədə) etsin.

“Ey Müaviyə! Bizdən Şamı sənin ixtiyarına qoymağımızı istəmişdin. Amma bil ki, dünən sənə qadağan etdiyim bir şeyi bu gün sənin ixtiyarında qoymaram. And olsun Allha və canıma, ey Müaviyə! Bilirsən ki, mən Osmanın qanı barədə sizin hamınızdan təmizəm və bilirsən ki, mən (o vaxtlar) kənarda idim. Bir halda ki, hər cür cinayət etməyi qərara almısan mənim qorxum yoxdur.” Özünü şeytanın faydalanması üçün vasitə qərar vermə və şeytanın öz vücuduna nüfuz etməsi yollarını kəs. “Ey Müaviyə! Əməllərin barədə Allahdan qorx və cilovunu şeytanın əlindən al ki, dünyanın uçurumunda durmusan və axirət sənə yaxınlaşıbdır.”

Sübhanəllah! Nə qədər qondarma həvəslərə bağlanmısan?! O da xalqın hüququnu tapdamaq və möhkəm dəlillərə etinasız yanaşmağınla. “Ey Müaviyə! Dünyapərəstlər dünyasından hərislik qapısı üzünə açılmış olsun.

Sən özün Quran əhli olmadığın halda bizi Quranın hökmlərinə dəvət etdin; buna görə də sənə müsbət cavab vermədik, əksinə, Qurana müsbət cavab verib və onun fərmanını icra etdik. Ey Müaviyə! Bil ki, sənin, babanın, qardaşının və dayının (Ühüd müharibəsində) başlarına enən qılınc indi də mənim yanımdadır. And olsun Allaha, bilirəm ki, sən axmaq və kor qəlblisən və sənin haqqında layiqdir ki, belə deyilsin: Elə bir nərdivanla yuxarı qalxmısan ki, səni təhlükəli uçuruma doğru aparır.”

“Allah bəndəsi Əmirəl-mömininindən Əbu Süfyan oğlu Müaviyəyə! Mən Höccəti sizə tamam etdiyim üçün sizdən bizarlıq axtardım. Yaxşı bilirsən ki, olmalı işlər qarşıya çıxdı və bu sərgüzəştin uzun başı vardır. Keçmişdən keç. İndi sənin vəzifən Şamda olan camaatdan mənim tərəfimdən beyət almaq daha sonra bir dəstə silahdaşlarınla mənim tərəfimə tələsib təslim ”.olmaqdır